BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Humanitar elmlər seriyası 2014*

UOT 94(470)

# XIX ƏSRİN 50-70-Cİ İLLƏRİNDƏ RUSİYANIN AVROPA DÖVLƏTLƏRİ İLƏ DİPLOMATİK MÜNASİBƏTLƏRİ

**Z.N.NURİYEVA**
***Bakı Dövlət Universiteti***
***zoya_nuriyeva@mail.ru***

*XIX əsrin 50-70-ci illəri beynəlxalq münasibətlərdə Şərq məsələsinin yenidən kəskinləşməsi ilə xarakterizə olunur. Həmin dövrdə Rusiya Krım müharibəsindən sonra itirdiyi mövqeyini bərpa etmək üçün bütün diplomatik vasitələrdən istifadə etməyə çalışırdı. Avropadakı ziddiyyətlərin kəskinləşməsindən sonra Rusiya xarici siyasətinin əsas problemi olan Paris sülhünün ağır şərtlərini aradan qaldırmağa başlayır və nəhayət, rus diplomatiyasının qələbəsi ilə nəticələnir.*

**Açar sözlər**: siyasi əlaqə, hərbi gerilik, müqavilə, ittifaq, sülh müqaviləsi

XIX əsrin ikinci yarısında beynəlxalq münasibətlərin ən mühüm problemlərindən biri, eyni zamanda Rusiyanın da xarici siyasətinin əsas istiqamətlərindən biri Şərq məsələsi olmuşdur. Krım müharibəsi Rusiya üçün ağır nəticələrlə başa çatmış və Rusiya əvvəllər əldə etdiyi bir çox nailiyyətlərdən məhrum olmuşdu. Bu itkilər Rusiya üçün Avropa siyasətində böyük bir siyasi mövqeyin itirilməsi demək idi. Müharibədə çarizmin məğlubiyyəti ölkənin iqtisadi geriliyini və dövlət hakimiyyətinin yararsızlığını bir daha aşkara çıxardı. Paris sülhünün Rusiya üçün ən ağır şərtlərindən biri Qara dənizin neytrallaşdırılması, orada hərbi donanma saxlamaq hüququnu qadağan edən maddənin olması idi. Bu, Rusiyanı cənub sərhədlərinin Dardanel və Bosfordan gözlənilən hücumlardan qorunmaqdan məhrum edirdi. Rusiyanın Osmanlı imperiyası tərkibində olan xristianların himayəçisi rolu da zəifləmişdi. Rusiya Krım müharibəsindən sonra Balkanlarda və Qara dənizdə itirdiyi mövqeyini əldə etmək üçün bütün diplomatik vasitələrdən istifadə etməyə calışırdi.

1856-cı ildən 1882-ci ilə qədər Rusiya Xarici İşlər Naziri (XİN) vəzifəsini tutmuş Aleksandr Mixayloviç Qorçakovun xarici siyasət məsələlərinin həll edilməsinə müstəqil baxışı vardı (1, 22). A.M.Qorçakov özündə yeni tip diplomat obrazı yaratmış, dövlətlərarası münasibətləri siyasi və iqtisadi

əlaqələr əsasında qurmağa çalışırdı. Xarici İşlər naziri təyin edilənə qədər o, bir çox ölkələrdə diplomatik məktəb keçmişdi (4,92). Krım müharibəsinin başa çatmasından 9 il sonra A.M.Qorçakov II Aleksandra hesabatında bəyan edirdi: "Bizim dövlətimizin və Avropanın hal-hazırki vəziyyətində Rusiyanın əsas diqqəti daxili inkişaf istiqamətinə yönəldilməlidir və bütün xarici siyasət bu əsas məsələyə tabe edilməlidir" (1, 23).

1850-1870-ci illərdə Rusiyanın xarici siyasətinin əsas məqsədi Paris sülhünün ağır şərtlərinin aradan qaldırılması idi. Ölkənin iqtisadi və siyasi, habelə təhlükəsizlik maraqları Qara dənizin neytrallığının ləğv edilməsini tələb edirdi. Lakin bu məsələni xarici təcrid və iqtisadi-hərbi gerilik şəraitində həll etmək mümkün deyildi. Diplomatlar bunu Avropa ölkələri arasındakı ziddiyyətlərdən istifadə etməklə həyata keçirməli idilər. Bu məsələnin həllindən başqa Rusiya Uzaq Şərqdə fəal fəaliyyət aparırdı. İngiltərə, ABŞ və Fransanın Sakit okeanda təcavüzü Rusiyanın siyasətinə təsirsiz ötüşə bilməzdi. Rus-ingilis ziddiyyətlərinin Yaxın Şərqdə və Mərkəzi Asiyada siyasi-iqtisadi zəmində kəskinləşməsi rus hökümətini müttəfiqlər axtarmağa vadar etdi (3, 471).

Rusiyanın başqa ölkələrlə münasibətləri, bu dövlətlərin Paris sülh müqaviləsinin müvafiq maddələrinə münasibəti baxımından müəyyənləşirdi. Avstriya və İngiltərə Rusiyanı bu məsələdə dəstəkləyə bilmədilər. Rusiyanın Yaxın Şərqə hərəkəti İngiltərənin Türkiyəni iqtisadi və siyasi asılılığa salmaq planlarına mane olmaqla, Avstriyanın Balkanlardakı mülklərinə təhlükə yaradırdı. Prussiya Almaniyanın birləşdirilməsi ilə əlaqədar məsələyə maraq göstərmirdi. O, sözdə Rusiyaya bildirdi ki, ağır şərtlərin aradan qaldırılmasına kömək edəcək. Bunun müqabilində Avstriya ilə mübarizədə Rusiyadan dəstək istəyirdi. Fransaya gəldikdə isə, Şərqdə Rusiya-Avstriya rəqabətini nəzərə alaraq, Fransa güman edirdi ki, Şimali İtaliya torpaqları uğrunda Avstriya ilə münaqişədə Rusiya ona dəstək verəcəkdi. Rusiyaya gəlincə o, öz növbəsində şərq məsələsinin həllində Fransadan kömək alacaqdı. 1856-cı ildə XİN A.M.Qorçakov bu barədə yazırdı: "Şərq məsələsinə görə Fransa ilə yaxınlaşmağı düşmənlərimizə qarşı güc mənbəyi hesab edirik". Fransa ilə ittifaqda Rusiya İngiltərəni zəiflətmək, Rusiyanın əvvəlki nüfuzunu bərpa etmək "Avropa bərabərliyini" yaratmağa ümid edirdi (7, 472). Lakin nəzərə almamaq qeyri-mümkündür ki, müharibədən sonrakı vəziyyətin yaradıcıları İngiltərə və Fransa idi. Fransa Paris konfransında 1855-ci il Avstriya ultimatumunda yer alan Qara dənizin neytrallaşdırılması maddəsini daxil etməyi təklif etmişdi, İngiltərə isə bu məsələdə Fransaya dəstək vermişdi (14, 22).

Rus-ingilis ziddiyyətlərinin kəskinliyini dərk edən rus höküməti Fransa ilə yaxınlaşaraq, ingilis-fransız fikir ayrılıqlarından məharətlə istifadə etməyə çalışırdı. Qorçakov tez-tez ifadə edirdi ki, ingilis-fransız ittifaqında Fransa İngiltərənin əlində "Rusiyaya qarşı "silah" ola bilər" (11, 18). 1856-cı il hesabatında o yazırdı ki: "Nə İngiltərə, nə Avstriya, nə də Prussiya Rusiya ilə real razılaşma bağlamaq imkanına malik deyillər. Yeganə olaraq kontinental və dəniz dövləti Fransa qalır ki, o da Rusiyanın müttəfiqi ola bilər" (1, 33; 8, 18). Bu

məqsədlə Peterburq Fransa ilə sürətli yaxınlaşma kursu götürdü. Bu istiqamətdə ilk addım 1856-cı ildə Fransanın Peterburq və Moskvadakı fövqəladə və səlahiyyətli səfiri Morninin II Aleksandr tərəfindən dəbdəbəli qarşılanması və səmimi şəraitdə imperator-səfir arasında qarşılıqlı bəyanatların verilməsi oldu (7, 472). Bu şəxsi əlaqələrin davamı olaraq böyük Konstantin Nikolayeviçin III Napoleonun dəvəti ilə 1857-ci ilin yazında Parisə səfəri oldu. Böyük knyaz Parisdə olarkən Fransa imperatoru Rusiya, İngiltərə və Fransanın birgə fəaliyyətinin mümkünlüyündən danışdı. Şəxsi danışıqların yekun mərhələsi Ştutqartda keçirilən imperatorların görüşü oldu. Peterburq imperatorların bu görüşünü kəşfiyyat və digər dövlətlərlə fikir mübadiləsi kimi qiymətləndirirdi. Hər iki imperatorların və xarici işlər nazirlərinin görüşü 1857-ci ilin sentyabrında baş tutdu. Üç gün davam edən görüşdə qarşılıqlı əhəmiyyət kəsb edən məsələlər müzakirə edildi: III Napoleon Avropanın yenidən qurulması planını şərh etdi, İtaliya məsələlərinə, eyni zamanda Dunay knyazlıqları ilə bağlı məsələlərə toxundu. Rusiyaya gəlincə isə o, öz təkliflərini əsasən Paris sülhünün bəzi maddələrinin aradan qaldırılması əsasında qururdu. Görüş zamanı heş bir rəsmi sənəd imzalanmasa da, dövlət başçıları Avropa yönlü siyasətdə qarşılıqlı razılaşma yolunu dəstəklədilər (12, 18; 2, 13).

Şərq siyasətinə gəldikdə isə imperatorlar qərara gəldilər ki, Osmanlı imperiyası süqut edərsə bir-birilərini xəbərdar etsinlər. 1858-ci ilin ikinci yarısı və 1859-cu ilin əvvəlləri III Napoleonun Rusiya ilə yaxınlaşma istiqamətində fəallığı ilə yadda qalmışdır. 19 fevral (3 mart) 1859-cu ildə Parisdə P.D.Kiselyov və Fransa Xarici İşlər naziri Valevski arasında bitərəflik və əməkdaşlıq haqqında məxfi rus-fransız müqaviləsi imzalandı. Müqaviləyə görə, Fransa Avstriya ilə müharibəyə başlayardısa, Rusiya arzu olunan bitərəfliyi saxlamalı idi. Bu müqavilə hər şeydən öncə Fransa üçün faydalı idi. Belə ki, müqavilə ona Avropada fəaliyyət azadlığı verirdi. Rusiyaya gəldikdə isə, o nə ərazi dəyişikliyinə məruz qalırdı, nə də Fransa tərəfdən Paris müqaviləsinin şərtlərinə yenidən baxmaq zəmanəti alırdı. Fransa Paris müqaviləsinin şərtlərinin dəyişdirilməsi barədə üzərinə heç bir konkret vəzifə götürmədi. Bununla bərabər rus-fransız müqaviləsinin Rusiya üçün bəzi müsbət cəhətləri də oldu (12; 69-70).

Avropanın cənubunda baş verən hadisələr rus-fransız müqaviləsindən Qərb dövlətlərinin diqqətini uzaqlaşdırdı. Fransa-Avstriya müharibəsində Rusiyanın mövqeyi ziddiyyətli idi. Rusiya Balkanlarda və Türkiyədə əsas düşməni olan Avstriyanın zəifləməsində maraqlı idi. Fransanın Avropada nüfuzu yüksəlməklə rus-fransız və rus-ingilis münasibətlərinə pis təsir göstərdi. Rusiyanın bu müharibədə arzu olunan bitərəfliyi Fransanı qane etmədi. Fransa Rusiyanı Avstriyaya qarşı aktiv əməliyyatlara cəlb etmək istəyirdi. Digər tərəfdən qalib Fransa müharibədən əvvəl olduğundan fərqli olaraq indi Rusiyaya az ehtiyac duyurdu. Ancaq şərq siyasəti məsələlərində Rusiya və Fransanın fəaliyyətləri birgə xarakter daşıyırdı. Onların hər ikisi Balkanlardakı milli hərəkatları dəstəkləyirdilər (4, 87-91).

Paris sülhünün Rusiya üçün ağır maddələrinin aradan qaldırılması və Balkan xristianlarının vəziyyətinin yaxşılaşdırılması istiqamətində Fransanın köməyinə bel bağlamaq üçün Rusiya hökuməti Napoleonun 1860-1861-ci illər Suriyaya edilən ekspedisiyasını dəstəkləməyə razı oldu (14, 26). Rusiyanın bu dəstəyindən ruhlanaraq bütün istəklərinə nail olan Fransa imperatoru Rusiyanı, demək olar ki, yaddan çıxardı. 1860-cı ilin mayında Qorçakov qərb ölkələrinə müraciət edərək təklif etdi ki, Osmanlı sultanını Balkanlarda islahatlar keçirmək üçün xəbərdar etsinlər və öz təzyiqlərini göstərsinlər. Bütün ölkələr, o cümlədən də Fransa Rusiyanın bu təklifinə laqeyd yanaşaraq dəstəkləmədilər. Fransanın bu təklifdən imtina etməsi Rusiya və İngiltərənin fransız qoşunlaının Suriyadan çıxarılmasını birgə tələb etməsinə gətirib çıxardı. Beləliklə 1861-ci ildə Fransa qoşunlarının Suriyadan çıxarılması bölgədə və Türkiyədə Fransanın mövqeyinin İngiltərənin xeyrinə zəifləməsinə səbəb oldu (14, 56).

Şərq məsələlərində heç bir güzəştə getmək istəməyən Rusiya yenidən Prussiya və Avstriya ilə ittifaqa qayıtmağa cəhd etdi (11, 218). Avstriya və Prussiya da Rusiya ilə yaxınlaşmaq istəyirdi. Avstriyanın Rusiya ilə birliyinə Vyananın balkanlarda apardığı anti-rus siyasəti mane olurdu. Bu baxımdan da Varşava görüşündə yekun nəticə əldə olunmadı. Polşa məsələsi Avropa hökumətləri arasında siyasi mübarizəni gücləndirdi və bütün siyasi maraqlar Polşa üzərində cəmləndi.

Xarici siyasətdə Rusiya Fransa ilə yaxınlaşmağa istiqmətlənməklə, təcriddən çıxmaqda, diplomatik yollarla sultanın qeyri-türk təbəələrinin yaşadığı ərazilərdə islahatların keçirilməsində və Paris sülhünün ağır şərtlərinin aradan qaldırılmasında Fransanın köməyinə ümid edirdi. Ona görə də, rus hökuməti əvvəlcə türk nazirlərinə üsyançıların tələblərini yerinə yetirmək məsləhətləri ilə kifayətlənmirdi. Hətta Fransa, İngiltərə və Avstriya-Macarıstan da daxil olmaqla Rusiyaya bu məsələdə əks mövqe tuturdular. İstanbuldakı Fransa səfiri De-Mustye Türkiyənin Rusiyaya olan etibarsızlığından istifadə edərək türk nazirləri və qərb diplomatlarını inandırmağa çalışırdı ki, Kritdəki çıxışlar məhz rusların müdaxiləsi nəticəsində baş verib. Fransa kritlilərə Rusiyanın köməyini rus hökumətinin Şərqdə möhkəmlənməsi və Qərbi Avropa ölkələri üçün təhlükəli bir hal kimi qiymət verirdi (13, 98). 1866-cı ilin payızında çar hökuməti Krit məsələsinə dair müştərək proqramı hazırlamaq üçün Parisə və Londona müraciət etdi. Kritdə yaranmış gərgin vəziyyət xarici vətəndaşlar üçün də təhlükə törətdiyindən Avropa ölkələri fəaliyyətlərini birləşdirdilər. Fransanın Türkiyədəki təsirini və Balkan xalqları arasındakı nüfuzunu nəzərə alaraq Rusiya Krit məsələsində Fransa ilə yaxınlaşmağa çalışırdı. Fransa xarici işlər naziri bildirdi ki, Şərq məsələsi nə Rusiyanın, nə də Fransanın iştirakı olmadan həll edilə bilməz və Fransa Rusiya əleyhinə olan fəaliyyətlərə imkan verməyəcək (9, 170).

Rusiya Avropa dövlətlərinin dəstəyi ilə Türkiyənin xristian əhalisinin xeyrinə sultan tərəfindən islahatların keçirilməsini zəruri sayırdı (12, 56). Fransa xristianların, əsasən də yunan və serblərin dini ziddiyyətlərində monipul-

yasiya edərək Rusiyanın Şərqdə nüfuzunu zəiflətmək istəyirdi. Rusiya isə əksinə yunan, bolqar, serb və digər xalqların türklərə qarşı mübarizəsini birləşdirərək gücləndirmək istəyirdi (11,57).

Balkan yarımadasında baş verən dəyişiklikləri Peterburq Paris sülhünün məhdudlaşdırıcı maddələrinin aradan qaldırılması üçün istifadə etmək istəyirdi. Parisdə müzakirə edilən məsələlərin əsas mövzusunu məhz bu istiqamət təşkil edirdi. 1867-ci ildə Sultan Krit üsyanının yatırılması barədə bəyanat versə də, mübarizə davam edirdi. Belə bir vəziyyətdə Fransa hökuməti Peterburqdakı səfiri Taleyran vasitəsilə Rusiyanın Osmanlı imperiyası dağılacağı təqdirdə planını öyrənməyə cəhd etdi. Qorçakov bildirdi ki, Rusiyanın ərazisini genişləndirmək planları yoxdur. Rus nazirinin bu bəyanatı Fransa tərəfindən məmnunluqla qarşılandı və III Napoleonu Avropa dövlətləri ilə birgə Türkiyənin çökməsinin qarşısını almaq üçün tədbirlər təklif etməyə həvəsləndirdi. Bu məsələ ilə bağlı Fransa və Avstriya arasında işgüzar əlaqələr quruldu (1, 89; 13, 183).

1867-ci ilin yanvarında Avstriya Xarici İşlər naziri Beyst Avropa ölkələrinə ünvanlanan xüsusi notasında Şərq məsələsinə Avstriya hökumətinin münasibətini şərh edirdi. O, təklif edirdi ki, Şərq məsələsi Avropa konfransında müzakirə edilsin, konfransda ilk müzakirə edilən məsələ isə 1856-cı il müqaviləsinə yenidən baxmaq olsun. Birinci növbədə söhbət Qara dənizin neytrallığının aradan qaldırılmasından gedirdi. Bu təkliflə Beyst Fransa və Rusiya ilə yaxınlaşmaqla Prussiyanın Avropadakı "genişlənmək" siyasətinə qarşı durmaq istəyirdi. Lakin Rus-Avstriya münasibətlərinin Şərqdə ziddiyyətliliyini nəzərə alan rus hökuməti Avstriyanın bu bəyanatına bitərəf mövqe nümayiş etdirdi. Avstriyanın bu bəyanatı praktiki cəhətdən heç bir nəticə vermədi. Avropadakı siyasi vəziyyət isə get-gedə daha da gərginləşirdi. Əsasən yeni gərginlik mənbəyi Rusiya və Fransa arasında Lüksemburq üstündə baş verdi (3, 218). Avropa dövlətlərinin daxili siyasətlərinin ziddiyyətlərini təsdiq edən və rus-fransız ziddiyyətinin sonrakı dərinləşməsini göstərən hadisələrdən biri də Fransa və Avstriya imperatorlarının Zalsburqda 1867-ci ilin avqustunda baş tutan görüşü oldu. Şərq məsələsinə gəlincə Fransa ilə Avstriyanın mövqeyi üst-üstə düşürdü, hər ikisi Balkanlarda Türkiyənin əsarətində olan Balkan xalqlarının status kvo vəziyyətini qəbul edirdi. Hər iki hökumət Rusiyanın Balkan siyasətinin düşməni idi. Onlar slavyanların həmrəylik səylərinin güclənməsinə qarşı çıxırdılar. Fransa və Avstriya imperatorlarının görüşünə qədər rəsmi Vyana Rusiyada 1867-ci ilin mayında çağırılan slavyan qurultayına qarşı öz etirazını bildirmişdi. Çünki bu qurultayda slavyanlar arasında separatizm təhlükəsi məsələsi və onların birləşmələrinin vacibliyi müzakirə edilirdi (9, 57).

Avstriya ilə Fransanın yaxınlaşması Rusiyanı məcbur etdi ki, Prussiya ilə yaxınlaşsın. Çox keçmədi ki, Fransa ilə Prussiya arasında olan gərginlik nəhayətdə müharibə ilə nəticələndi ki, Rusiya diplomatları da bundan məharətlə istifadə etməyə başladılar (15, 103).

Rusiya hökuməti Avropadakı siyasi parçalanmadan istifadə edərək, dünya dövlətlərinin başının Fransa-Prussiya müharibəsinə qarışdığını görüb

özünün xarici siyasətinin bir nömrəli problemi olan – Paris sülhünün məhdudlaşdırıcı maddələrinin aradan qaldırılmasına başladı. Qara dənizin neytrallaşdırılmasının əsas təşəbbüsçüsü olan Fransanın müharibəyə başının qarışması Rusiyaya maneçilik yaratmağa imkan vermədi, Prussiya kralı Vilhelm və Bismark isə II Aleksandrı əmin etdilər ki, onun 1856-cı ildə müqavilələrinə dəyişiklik etmək iddiası haqlı və qanunidir (15, 90). Fransanın ilk məğlubiyyətləri Türkiyə-Rusiya münasibətlərində nəzərə çarpan yaxşılaşmaya səbəb oldu. İqnatev Türkiyədəki nüfuzundan və bir çox işlərdə başlıca rol oynamasından istifadə edərək 1870-ci ilin avqustunda Paris sülhünün nəticələrinin aradan qaldırılması üçün baş vəzir Əli paşa ilə danışıqları yenidən başladı. O, türk diplomatını əmin etməyə çalışırdı ki, bu ləğv etmənin həm Türkiyə, həm də Rusiya üçün əhəmiyyəti var (11, 90). Bu danışıqların məzmunu Avropada məlum olanda böyük hay-küyə səbəb oldu ki, bu da Rusiya üçün böyük bir fürsətə çevrildi.

15 oktyabr 1870-ci ildə II Aleksandr nazirlər şurasının iclasında Paris sülhünün müvafiq maddələrinin aradan qaldırılmasının məqsədəuyğunluğunu müzakirə etdi. Rusiyanın Paris müqaviləsinin məhdudlaşdırıcı maddələrinin aradan qaldırılması barədə bəyanat A.M.Qorçakov tərəfindən 19 (31) oktyabr 1870-ci ildə xaricdə olan rus səfirləri vasitəsilə Paris müqaviləsini (1856) imzalayan dövlətlərə göndərildi (12, 521). Qorçakovun bu notası bir çox ölkələrdə böyük narazılıqlarla qarşılandı. Amma ən çox güclü təzyiq Vyana və Londondan gəldi. Belə ki, hər iki hökumət Rusiyanın bu addımını müharibəyə bəhanə kimi qiymətləndirdi.

Prussiyaya gəlincə isə, Bismark Rusiyanı açıq dəstəkləməklə, İngiltərəni Prussiyaya qarşı çevirmək və yeni müharibə yarada bilən ingilis-rus narazılığını da istəmirdi. Tərəfləri barışıdırmaq üçün kansler 1856-cı il müqaviləsini imzalayan dövlətlərin Peterburqda iclasını çağırmağı təklif etdi. Bütün dövlətlər bu təklifi qəbul etdilər, lakin ingilislər görüşün Londonda keçirilməsi təklifini irəli sürdülər. Londonun bu təklifinə digər ölkələr etiraz etmədilər. İclasın işinə Fransanın qatılmasında maraqlı olan İngiltərə bu ölkəni, Prussiya isə Rusiya və İtaliyanı dəvət etdi. Peterburqda ehtimal edirdilər ki, "Konfransın çağırılmasına tələsmək lazımdır, çünki Fransa-Prussiya müharibəsi gedişindən diqqət Avropa hadisələrinə yönəlib." Qorçakov hesab edirdi ki, "Londondakı konfrans qısa müddətli – praktik əhəmiyyətli olmalıdır" (6, 101). Belə olan halda başqa məsələlər qoyulmadan Paris sülhünün məhdudlaşdırıcı maddələrinin aradan qaldırılmasının müzakirəsi təklif edildi. 5 (17) yanvar 1871-ci ildə Londonda Paris traktatını imzalayan dövlətlərin iştirakı ilə Fransa nümayəndələrinin iştirakı olmadan konfrans öz işinə başladı. İclası açan Qrenvil konfransın çağırılmasında Paris müqaviləsini imlzalayan dövlətlərin razılığının olduğunu bildirdi. Rusiya Qara dənizlə bağlı olan maddələrə yenidən baxılması təklifini səsləndirdi (7, 105).

Rusiya nümayəndəsi bildirdi ki, bu müqavilə onu imzalayan dövlətlərin çoxu tərəfindən pozulmuşdu, eyni zamanda neytrallaşdırma prinsipi Rusiya ilə

bərabər Türkiyənin də maraqlarına toxunmur. Türkiyə nümayəndəsi bəyan etdi ki, Türkiyə Qara dənizin neytrallaşdırılmasını onun suverenliyini pozan fəaliyyət kimi qiymətləndirmir və onu Paris müqaviləsinin sülh şərtlərinin zəmanəti kimi saxlanılmasına tərəfdardır. Lakin Rusiyaya güzəştə gedərək Musurus paşa bildirdi ki, Türkiyə ölkəsinin təhlükəsizliyinə zəmanət verən zəruri tədbirlər müqabilində Paris traktatının bəzi maddələrinə yenidən baxmağa hazırdır (11, 105). Kəskin müzakirələrdən və mübahisələrdən sonra, nəhayət, 1 (13) mart 1871-ci ildə keçirilən konfransın sayca beşinci iclasında 1856-cı il Paris traktatına dəyişiklik gətirilən 9 maddəli London protokolu qəbul edildi (12, 111-113).

London müqaviləsinin birinci maddəsinə əsasən, 18 (30) mart 1856-cı ildə bağlanmış Paris müqaviləsinin Qara dənizin neytrallaşmasını nəzərdə tutan XI, XIII və XIV maddələri, habelə Rusiya və Türkiyə arasında imzalanan konvensiya ləğv edilirdi. London protokolunun 1 (13) mart 1871-ci ildə imzalanması ilə təxminən iki ay davam edən konfrans öz işini başa vurdu. O, Rusiyanın böyük diplomatik qələbəsi idi. Qara dənizin neytrallaşdırılmasının aradan qaldırılması Paris müqaviləsinin digər şərtlərinin saxlanılması ilə həll edildi. Rusiya Qara dənizdə hərbi donanma saxlamaq və sahilyanı ərazilərdə hərbi istehkamlar tikmək hüququ əldə etdi. Fransa-Prussiya müharibəsi nəticəsində yaranan beynəlxalq münasibətlərdən istifadə etməsi, Paris müqaviləsinin bir çox maddələrinin Avropa ölkələri tərəfindən pozulması rus diplomatlarının xaricdə dimplomatiyanın qələbəsinə gətirib çıxardı.

## ƏDƏBİYYAT

1.Бушуев С.К., Горчаков А.М. Дипломат. 1798-1883. М.: ИМО, 1961, 109 с.
2.Виноградов В.Н. Россия и объединение румынских княжеств. М.: АН СССР, 1961, 331с.
3.Восточный вопрос во внешней политике России конец XVIII – начало XX в.в. М.: Наука, 1978, 434 с.
4.Vəliyev T.T., Şahmuradov A.S. Slavyan ölkələri tarixi (XIX əsrin ikinci yarısı-XX əsrin əvvəlləri). Bakı: Vətən, 2012, 566 c.
5.Ерусалимский А.С. Внешняя политика и дипломатия германского империализма в конце XIX века. М.: АН СССР, 1951, 608 с.
6.Ерусалимский А.С. Бисмарк. Дипломатия и милитаризм. М.: Наука, 1968, 284 с.
7.История дипломатии. В 3-х томах. Т. I. Под ред. В.П.Потемкина. М.: Соцэкгиз, 1945, 567 с.
8.Киняпина Н.С. Внешняя политика России второй половины XIX в. М.: Наука, 1974, 335 с.
9.Никитин С.А. Очерки по истории южных славян и русско-балканских связей в 50-70-х гг. XIX в. М.: Наука, 1970, 328 с.
10.Орлов А.С., Полунов А.Ю., Терещенко Ю.Я. Основы курса истории России. М.: Простор, 2006, 637 с .
11. Россия и восточный кризис 70-х гг. XIX в. М., АН СССР, 1981, 345с.
12.Сборник договоров России с другими государствами (1856-1917). М.: Госполитиздат, 1952, 464 с.
13.Сенкевич И.Г. Россия: Критское восстание 1866-1869 гг. М.: Наука, 1970, 212 с.

14.Паценкова М.Т. Политика Франции на Ближнем Востоке и Сирийская экспедиция 1860-1861 гг. М.: Наука, 1966, 311 с.
15.Тейлор А. Борьба за господство в Европе 1848-1918. М.: Иностранка, 1958, 644 с.

## ДИПЛОМАТИЧЕСКОЕ ОТНОШЕНИЕ РОССИИ С ЕВРОПЕЙСКИМИ СТРАНАМИ В 50-70 ГОДЫ XIX ВЕКА

**З.Н.НУРИЕВА**

### РЕЗЮМЕ

50-70 годы XIX века характеризуются вновь обострением вопросов, международных отношений с Востоком. В этом периоде после Крымской войны дабы восстановить свою дипломатическую позицию, Россия старается использовать все возможные усилия. После антогонистичестих обострений, Россия в своей иностранной политике начинает отстранять условия Парижского мира, основанной на проблеме России.

**Ключевые слова:** политическое отношение, военная отсталость, договор, союз, мирный договор.

## DIPLOMATIC RELATIONS OF RUSSIA WITH EUROPEAN COUNTRIES IN THE 50-70s OF THE XIX CENTURY

**Z.N.NURIYEVA**

### SUMMARY

50-70-s of the XIX century is characterized by the acceleration of the Eastern problem in international relations. During this period, Russia was trying to use all diplomatic means for restoring its lost position after the Crimean War. After the acceleration of the contradictions in Europe, Russia starts to eliminate severe conditions of the Paris Peace which results in the victory of Russian diplomacy.

**Key words**: political relations, military backwardness, contract, a peace treaty